# Səfir Vada Tərtər, Bərdə,Zərdab rayonlarında həyata keçirilmiş 2 “Ot Kökləri” Yardım Layihələrinə baxış həyata keçirdi.

23 aprel tarixində Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cuniçi 2019-cu il “Ot kökləri və İnsan Təhlükəsizliyi” Qrant Yardım Proqramı çərçivəsində həyata keçirilmiş layihələrə baxışı ilə bağlı Tərtər, Bərdə və Zərdab rayonlarına səfər həyata keçirdi. Səfər zamanı “Tərtər rayonunun 6 kəndində və Bərdə rayonunun 3 kəndində suvarma təchizatının təkmilləşdirilməsi” və “Zərdab rayonunun İsaqbağı və Məlikumudlu kəndlərində tibb məntəqəsinin tikintisi” layihələrinə baxış həyata keçirildi.

“Suvarma təchizatının təkmilləşdirilməsi” layihəsi çərçivəsində Tərtər rayonunun Azad Qaraqoyunlu, Bayandurlu, Bəyimsarov, Kəbirli, Köçərli, Xoruzlu kəndlərinin, Bərdə rayonunun Qasımbəyli, Kələntərli, Körpüsındıran kəndlərinin suvarma təchizatı bərpa olunmuşdur. Hər 2 rayonun suvarma sistemi 2021-ci ilin mart ayından kənd əhalisinin istifadəsinə təqdim edilmişdir.

“Tibb məntəqəsinin tikintisi” layihəsi çərçivəsində Zərdab rayonunun İsaqbağı və Məlikmudlu kəndlərinin hər birində tibb məntəqəsi inşa olunmuşdur. Hər 2 tibb məntəqəsi 2021-ci il iyun ayından etibarən kənd əhalinin istifadəsinə təqdim edildi.




